UOT 37.01.

***Nuranə İlqar qızı Musazadə,***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# AZƏRBAYCAN TARİXİ DƏRSLƏRİNDƏ İDRAK TAKSONOMİYASININ TƏTBİQİNİN MAHİYYƏTİ

***Нурана Ильгар гызы Мусазаде,***
*Азербайджанский Государственный Педагогический Университет*

# ЗНАЧИМОСТЬ ПРИМЕНЕНИЯ ПОЗНАВАТЕЛЬНОЙ ТАКСОНОМИИ НА УРОКАХ ИСТОРИИ АЗЕРБАЙДЖАНА

***Nurana İlgar Musazada,***
*Azerbaijan State Pedagogical Universty*

# THE ESSENCE OF USİNG COGNİTİVE TAXCONOMY DURİNG THE LESSONS OF AZERBAIJAN HİSTORY

**Xülasə:** Məqalə Azərbaycan tarixi dərslərində idrak taksonomiyasının mahiyyətinə həsr edilib. Burada problemin aktuallığı, işlənmə səviyyəsi əsaslandırılıb. ”Ümumi orta təhsil səviyyəsinin fənn kurikulumları üzrə təhsil proqramı”na əsasən Azərbaycan tarixi dərslərində idrak taksonomiyasından səmərəli istifadənin nəzəri məsələləri şərh edilib. Məqalədə tarix dərslərində idrak taksonomiyasının tədris prosesini, şagird fəallığını stimullaşdıran amillər qeyd edilib.
***Açar sözlər:*** *canlandırma, müəyyən etmə, planlaşdırma, öyrənmək*

**Резюме:** Статья посвящена важности познавательной таксономии на уроках Истории Азербайджана. Здесь обоснованы актуальность проблемы и уровень разработки. Был рассмотрен «Общий уровень среднего образования по его программе предметам курикулума», также в статье исследованы теоретические вопросы по эффективному использованию познавательной таксономии на уроках истории Азербайджана. Были отмечены процессы преподавания на уроках Истории познавательной таксономии и факторы, стимулирующие активность ученика.
***Ключевые слова:*** *оживление, определение, планирование, обучение*

**Summary**: This article is dedicated and using level of problems has been based on. Theoretical problems of efficient usage from cognitive taxanomy which is based on educational programme through subject curriculums of secondary educational level in the lesson of Azerbaijan history has been commented. Teaching process of cognitive taxconomy in history lesson ,the factor which stimulate student ‘ activity has been noted.
***Key words:*** *to revive, to determine to plan, to learn*

Azərbaycan Respublikası XX əsrin 90-cı illərindən azad dövlətçilik yoluna qədəm qoymuşdur. Bu vaxtdan etibarən təhsil sahəsində köklü islahatlar həyata keçirilmişdir. İnsan amilinin başlıca kapitala çevrildiyi dövrdə inkişaf etmiş ölkələrin elmi nailiyyətlərindən bəhrələnmək müasir dövrün başlıca tələbatlarındandır. Təhsil Nazirliyinin 25 may 2012-ci il 976 saylı əmri ilə Ümumi orta təhsil səviyyəsində “Məzmun standartlarının fəaliyyəti baxımından Takonomiya anlayışının təsnifatı“ bariz nümunədir. Azərbaycan tarix dərslərində Koqnitiv taksonomiyanın tədris sahəsinə tətbiqi şagirdlərin idrak fəaliyyətini aktivləşməsində mühüm rol oynayır” [1, s. 95].

Benjamen Blum “Təhsil məqsədlərinin taksonomiyası” adlı özünün fundamental təsnifatında bilik sahəsi əsasında tədris məqsədlərinin koq-

nitiv sahə üzrə mərhələ - mərhələ insan düşüncəsinin səviyyələrini şərh etmişdir" [2, s. 43]. O qeyd edir ki, düşüncənin iyerarxik təsnifatında başlıca cəhət tədrisin məqsədləridir. Bunlar yaddasaxlama (bilik), anlama, tətbiqetmə, analiz, sintez, qiymətləndirmədir" [3, s. 133].

Hər bir səviyyənin özünə məxsus açar sözləri mövcuddur.

***Cədvəl [4, s. 20].***

| Yaddasaxlama (bilik) | Anlama | Tətbiq etmək | Analiz | Sintez | Qiymətləndirmə (sərbəst intelektual fəaliyyətə yönəlir) |
|---|---|---|---|---|---|
| Yadda saxlayın, təkrar edin, yazın, öyrənin, müəyyən edin, sadalayın | Planlaşdırmaq, başa salmaq, təsvir etmək, məşq etmək, göstərmək, istifadə etmək | Tətbiq etmək, təsnif etmək, şəklini dəyişmək, nümayiş etdirmək, hesablamaq, aydınlaşdırmaq, göstərmək | Tədqiqat aparmaq, müqayisə etmək, qarşılaşdırmaq, analiz etmək, qruplaşdırmaq | Birləşdirmək, canlandırmaq, formalaşdırmaq, yaratmaq, kəşf etmək | Nəticə çıxarmaq, bacarmaq, məsləhət vermək, tənqid etmək, əsasını qoymaq, fikirləşmək, əsaslandırmaq, fikri müdafiə etmək |

Müəllim Blum taksonomiyasının mərhələləri əssında aşağıdakı dərs modelini qura bilər:

**Mövzu:** İkinci Dünya müharibəsi və Azərbaycan

**Standart**: 4.1.1, 4.1.2

**Məqsəd**: 1. Azərbaycan tarixində və ikinci dünya müharibəsi dövründə Həzi Aslanovun, Mehdi Hüseynzadənin, İsrafil Məmmədovun, Əhmədiyyə Cəbrayılovun rolunu müəyyən edir.

2. Dərslikdən istifadə etməklə Həzi Aslanov, Mehdi Hüseynzadə, Əhmədiyyə Cəbrayılov, İsrafil Məmmədov haqqında təqdimat hazırlayır.

Dərsin tipi: İnduktiv

**İş forması**: Kiçik qruplarla iş

**İş üsulu:** Əqli hücum, diaqram

**Resurslar:** 5-ci sinif Azərbaycan tarixi dərsliyi

**Motivasiya:**

1. Bu günə qədər hansı qəhrəmanların adını öyrənmişik?

2. SSRİ-nin tərkibində döyüşmüş azərbaycanlı qəhrəmanlardan kimləri tanıyırıq?

**Tədqiqat sualı:** II Dünya Müharibəsində SSRİ-nin qalib gəlməsində azərbaycanlı qəhrəmanlarımızın rolunu dəyərləndirin.

Şagirdlər 4 qrupa bölünür: Həzi Aslanov, Mehdi Hüseynzadə, Əhmədiyyə Cəbrayılov, İsrafil Məmmədov

Qrup: Həzi Aslanov

Şəhərlərin azad edilməsi və düşmənin məhvində Həzi Aslanovun rolunu müəyyənləşdirib, təqdimat hazırlayın.

Qrup: Mehdi Hüseynzadə

Mehdi Hüseynzadənin kəşfiyyatçı kimi fəaliyyətindən bəhs edən qısa səhnəcik hazırlayın.

Qrup: Əhmədiyyə Cəbrayılov

Əhmədiyyə Cəbrayılovu Mehdi Hüseynzadə ilə eyniləşdirən cəhətləri müəyyən edib sxem qurun.

Qrup: İsrafil Məmmədov

Dərslikdən istifadə edərək Mehdi Hüseynzadəyə məxsus xüsusiyyətləri yazın.

**Məlumat mübadiləsi:** Bu mərhələdə şagirdlər öz təqdimatlarını şərh edirlər. Qəhrəmanlarımızın xalqımıza verdiyi töhfələr nələr idi?

Onlar hansı igidlikləri ilə seçildilər?

**Məlumatın müzakirəsi:** Bu mərhələdə əldə edilmiş məlumatların açıq müzakirəsinə başlanılır. Qruplar bir-birinin təqdimatlarını dinləyir və lazım olduqda əlavələrini edirlər. Şagirdlərdə əməkdaşlıq bacarıqları formalaşır.

**Ümumiləşdirmə və nəticələrin çıxarılması** (5 dəq): Qəhrəmanlarımızın azadlıq uğrunda həmlələri qruplar tərəfindən ətraflı şərh edildi.

**Yaradıcı tətbiqetmə** (5 dəq): 4 qrupun dördünə də qrupların adı ilə özlərini təqdim etmələri tapşırılır.

Rollar üzrə Qəhrəmanın dili ilə danışma

| Qiymətləndirmə - 4 səviyyə üzrə | | | | | |
|---|---|---|---|---|---|
| Qrup meyarları | Şəxsiyyəti müəyyən etmə | Əməkdaşlıq | Vaxtdan səmərəli istifadə | Təqdimat etmə | Şərh etmə |
| Həzi Aslanov | 1 | 1 | 4 | 3 | 4 |
| Mehdi Hüseynzadə | 1 | 4 | 4 | 1 | 3 |
| Əhmədiyyə Cəbrayılov | 3 | 4 | 3 | 4 | 1 |
| İsrafil Məmmədov | 4 | 1 | 2 | 3 | 4 |

Ümumtəhsil məktəblərinin tarix dərslərində idrak taksonomiyasının tətbiqi nəticəsində şagirdlərin mexaniki hafizəsi məntiqi hafizə ilə əvəz edilir.

**Mövzunun aktuallığı:** İdrak taksonomiyası, onun nəzəri və praktik cəhətləri Benjamen Blumdan başlayaraq bir çox qabaqcıl alim və metodistlərin yaradıcılığında diqqət mərkəzində olmuşdur. Lakin çox təəssüf ki, bu məsələ azərbaycanlı mütəxəssislər tərəfindən kifayət qədər araşdırılmamışdır.

**Nəticə olaraq qeyd edə bilərik ki,** Azərbaycan tarixi dərslərinin tədrisində idrak taksonomiyasından istifadə təlim keyfiyyətini yüksəldərək şagird şəxsiyyətinin formalaşmasında mühüm rol oynayır.

**Məqalənin nəzəri əhəmiyyəti** ondan ibarətdir ki, əldə edilən nəticələrdən magistrantlar, bu sahə ilə məşğul olan mütəxəssislər istifadə edə biləcəklər.

**Məqalənin praktik əhəmiyyəti** ondan ibarətdir ki, məqalənin məzmunundan ümumtəhsil məktəblərinin müəllimləri pedaqoji fəaliyyətlərində istifadə edə biləcəklər.

**Ədəbiyyat:**

1. F. Yusifov. Ədəbiyyatın tədrisi metodikası. Bakı, 2007.
2. M. Həsənov, N. Cəfərova və C. Bəhmənova. İbtidai sinif müəllimləri üçün kurikulumun məzmunu və həyata keçirilməsi yolları (metodik vəsait). Bakı, 2014.
3. Zülfiyyə Veyisova. Fəal İnteraktiv Təlim: Müəllimlər üçün vəsait. Bakı, 2007.
4. Bloom B.S (Ed). Taxononmy of educational objectives: The classification of educational goals: Handbook I., cognitive domain New York: Longman, 1956, pp.20-23

**E-mail:** thenurn001.musazade@gmail.com
**Rəyçilər**: *tarix ü. elm. dok.,dos*. S.M. Seyidova
*ped.ü.elm.dok., prof.* M.M. Əmirov
**Redaksiyaya daxil olub:** 27.11.2018.